*Taclı Bəyimin xəyalı ilə söhbət şahı öz aləmindən qoparmışdı. Sanki onun nəinki xəyalı Təbrizdə idi, lap elə özünü də Təbrizdə, Taclı Bəyimin yanında hiss edirdi. Amma ətrafında baş verən hadisələr elə axırıncı döyüşün qovğası da hələ gözlərinin önündən çəkilməmişdi. Belə məqamlarda Şah İsmayıl təkcə rəqiblərini yox, elə özünü də qınayırdı: «Axı nə üçün dünyaya rahat yaşamaq üçün gələn insanlar bir-birini qanına qəltan etməlidirlər. Olmazmı ki, hər kəs öz haqqına qail olub sakit yaşasın».*

*Şah belə sualları özünə nə qədər versə də, cavabını tapa bilmirdi. Hərdən də ağlına gəlirdi ki, lap elə buradanca Təbrizə yollansın. Sultan Murada da sifariş etsin ki, madam ki, gedib Şiraza çatmısan elə orada da sakit yaşa. Ancaq Şirazın hakimliyi ilə kifayətlən.*

*Belə xəyallardan sonra həmişə öz-özünə gülürdü. Əlbəttə, onu öz-özünə gülən görən olsaydı, şahın xəyalının dolaşdığı, əhvalının qarışdığı haqqında düşünərdilər. Amma yox, şah nə qədər gənc və təcrübəsiz olsa da, artıq müharibələrdə bişmişdi. Həm də ən əsası o idi ki, şahı Hüseyn Lələ bəy, Qəmbər ağa kimi lələlər vaxtından əvvəl ruhən böyütmüşdülər.*

*Əmirlərlə söhbətində dəfələrlə ən çətin, ən mürəkkəb məsələlər üçün çıxış yolunu məhz o, özü tapmışdı və bununla da əmirləri çox təəccübləndirmişdi. Ən əsas da ona görə ki, ən örtülü bir məsələ haqqında şah qeybdən xəbər tuturmuş kimi, söz deyir, hökm verirdi. Az keçməmiş məlum olurdu ki, şahın dediyi söz doğrudur, verdiyi hökm ədalətlidir. İndi o, bütün qoşunu çəkib Təbrizə qayıtmalı olsaydı da əmirlər təəccüblənməzdilər. Düşünərdilər ki, yəqin şahımıza qeybdən bir xəbər gəlib. Yəqin ki, onun verdiyi hökm yenə də yetərincə düzgündür. Amma yox, şah belə qərar qəbul etməzdi. Ona görə belə qərar qəbul etməzdi ki, düşmənə yenidən fürsət vermiş olardı. O, bilirdi ki, Sultan Murad şahın Şirazı ona bağışlamaq xəbərini eşidəndə tamam ayrı cür düşünəcək. Elə biləcək ki, şahın onu təqib etmək gücü yoxdur. Elə bu səbəbdən də qorxub geriyə çəkilib. Şah İsmayıl necə olsa da öz sevgilisinin həsrətini hələ də çəkməli olacağını bilir, Səfəvi xanədanının gələcəyi naminə bu həsrəti çəkməyin şərəf olduğunu da düşünürdü. Bir sözlə, şahın varlığı iki od arasında qalmışdı. Ya o, tutduğu yolu axıracan getməli, Səfəvi xanədanını qorxu altında saxlayacaq qüvvələri tamamilə darmadağın etməli, ya da öz sevgisinin arxasınca gedib siyasi işlərdən tamam uzaqlaşmalı, hərbdən, qovğalardan kənara çəkilməli idi.*



***Hüseynbala MİRƏLƏMOV***

«- Yox, İsmayıl, sən haqq yoldan azmamısan. Bu yolu qorumaq üçün axıracan getmək gərəkdir. Burdan beləsini özün düşün.»

«- Deyirsən mənim yolum savaş yoludur? Ömrü boyu mən həyatımı savaşda keçirəcəyəm. Axı dünyada başqa işlər də var.»

«- Doğru deyirsən, dünyada başqa işlər də var. Mən demirəm ki, sən dünya zövqündən xəbərsiz qalsan. Bilirəm, indii səni Taclı Bəyimin sevgisi çəkir. Onun həsrətinə dözə bilmirsən. Unutma ki, elə bu sevgini qorumaq naminə Sultan Muradla savaşı başa çatdırmalısan. Özü də qələbənlə».

«- Hər döyüşün öz taleyi var. Nə bilmək olur dünyanın gərdişini».

«- Hər bir tərəddüd qorxuya yol açır. Taclı bəyim səndən qələbə gözləyir».

Şah istəyirdi ki, atasının bu sözünə də hansısa bir cavabı versin. Başını qaldıranda ətrafında bir kimsənin olmadığını gördü. Anladı ki, atası xəyalən ona qonaq gəlmiş, bəlkə də, çətinə düşdüyü bir məqamda ona ən düzgün və doğru yolu göstərmək istəmişdi.

Şahın özünə də qəribə gəlirdi. O, istəmirdi ki, bu şirin xəyallardan ayrılsın. O, yenə Taclı Bəyimlə üz-üzə, göz-gözə qalmaq duyğularını arzulayırdı. Beləcə, şah yenə də xəyallandı.

Yenə şahın xəyalı qanadlandı, ruhu uçdu. Heç özü də bilmədi ki, sevgisinə, sevgilisinə küləklərlə gətirir? - Şah bilirdi ki, Hüseyn Lələ bəy onun hüzuruna səbəbsiz yerə belə gəlməzdi. Çünki şah tənhalığa çəkilib fikirlərə qərq olanda heç kim ona yaxınlaşmazdı. Belə məqamlarda yenə Hüseyn Lələ bəy qabağa durardı.

- Hə, şahım, möhtərəm Aləmşah bəyimin bacısı gəlib, sənin xalan - Məryam xanım.

Bir anlığa, sanki şahın anası gəlib - xəbəri kimi qarşıladı bu sözləri. Xalasının adına ehtiram olaraq ayağa qalxdı. Buyruq verdi ki, onu hörmət və ehtiramla qarşılayıb rahatlıq üçün şərait yaratsınlar. Özü nə vaxt istəsə yanıma gəlsin, - dedi.

...Şah Məryam xanımın gəlişi haqqında təşvişli düşüncələrə dalsa da, onun gəlişindən çox xoşhal olmuşdu. Hiss edirdi ki, xalasının gəlişi təsadüfi deyil. Və çox güman ki, bu gəliş elə Sultan Muradın taleyi ilə bağlıdır. Əslində, Sultan Muradın onun şərtlərini qəbul edib, müharibələrə son qoymaq xahişi olsaydı, buna Şah İsmayıl sevinərdi. Çünki o, Sultan Muradla savaşda insan qırğınına daha bundan o tərəfə yol vermək istəmirdi.

Səhəri gün o, xalası Məryam xanımla üzbəüz əyləşmişdi.

- Ay oğul, Allah onun gözlərini bağlayıb. İndiyə qədər sənin kimliyini dərk etməyib.

- Məgər o bilmir ki, insan gözübağlı yaşaya bilməz. Gərək həyatın işlərindən doğru-düzgün baş çıxarasan.

- Elə mən də onu deyirəm. O, gərək anlasın ki, haqq sənin tərəfindədir.

- Bəs anlamasa necə?

- Elə mən də buraya onun üçün gəlmişəm. O, məni inandırıb, söz verib ki, Şah İsmayıla qarşı, Səfəvi xanədanına qarşı düşmənçilikdən birdəfəlik əl çəkir. Qoy şah onu bağışlasın...

- Sultan Murad onu bağışlamağımı istəyirmi belə?

- Bəli, bəli, o, çox istəyir ki, sən onu bağışlayasan. Müharibələr, qırğınlar da bu bağışlamalarla sona çatsın.

- Özün bilirsən ki, Sultan Murad hiyləgərdir. Birdən o, səni aldatmış olsa necə?

- Əvvəla, o, mənə söz verib. Bağışlanmağının müqabilində sənin qoşununa hər cür yardım edəcək, köməklik göstərəcək. Bir də özün bilirsən, Allah bağışlayanların tərəfində olar.

- Sultan Murad təzədən xəyanət etsə necə olacaq?

- Onda qardaşım oğlunun qanını sənə halal edirəm.

Məryam xanım bu sözləri deyib ayağa qalxdı.

Şah onun zabitəli, hökmlü görkəminə hörmətlə nəzər yetirdi. Anası yerində gördüyü bu qadının xahişinə əməl etməmək Allahın yanında böyük günah sahibi olmaq demək idi.

...Sultan Murad Məryam xanımı Şah İsmayılın yanına göndərəndən sonra düşündü ki, şah Şiraza hücum xəbərindən əl çəkəcək, beləcə vaxt uzanacaq

# ÇALDIRANA GEDƏN YOL

## *romandan səhifələr*

*(Əvvəli ötən saylarımızda)*

Bu zaman şah istehza ilə gülümsündü. Bunun da səbəbi var idi. Çünki həmin anda ona elə gəldi ki, atası Şeyx Heydər kənardan dayanıb ona qınaqlı nəzərlərlə baxır:

«- Əmirlər səni beləmi böyütdü? Qəmbər ağa sənə beləmi öyüt vermişdi? İndi sənin bu əməlindən Hüseyn Lələ bəy nə düşünər?»

«- Mən bu qədər insan qanının axıdılmasını istəmirəm axı. Bu insanların qanlarının axıdılmasının nə mənası var? Döyüş meydanlarında ölənlərin nə qədər arzuları yarımçıq qalır. Axı onların övladlarının, doğmalarının nə günahı var ki, sinələri dağlanır, gözləri yaşlı qalır...»

«-İsmayıl, qardaşın Sultanəlinin taleyi yadındamı? Onu nə üçün öldürdülər? İllər boyu ananla, doğmalarınla İstəxr qalasında sən nə üçün həbsə məhkum edilmişdin? Bunlar hamısı bir yana, heç Qəmbər ağanın ruhu səni bağışlayarmı? O, ağsaqqal çağında, ömrünün ahıl vaxtında kimsənin gedə bilməyəcəyi yolu seçdi. Sənin məramını Sultan Murada yetirmək üçün onun sarayına getdi. Əvəzində nə baş verdi?»

«- Bilirəm, mürşidim, - Şeyx Heydər sanki oğlunun ona mürşidim deməsindən qürurlandı. İrəli gəlib ona lap yaxın dayandı. Oğlunun sözlərini bir az daha aydın eşitmək istədi. - Hə, bilirəm, ata, biz çox haqsızlıqlar görmüşük. Amma hərdən düşünürəm ki, bəlkə, mənim də gözlərimi bizə olan pisliklərin sayəsində qərəzkarlıq tutub, haqq yoldan azmışam».

göndərəcəyi qəzəli bədahətən dodaqlarından necə car elədi:

Şahın həzin misraları nəğmə kimi səslənirdi. Axırıncı misraları da dodaqlarından süzülüb sərin-sərin əsən mehə qarışdı. Onun xəbəri olmamışdı ki, kimsə yaxınlaşır. Gələn adamın kim olduğunu bilmək üçün başını qaldırdı. Görünür, gələn şəxs də səssiz-səmirsiz yaxınlaşdı. İstəmirdi ki, birdən-birə şahı xəyalından ayırsın. Bu, Hüseyn Lələ bəy idi.

- Sənə qurban olum, şahım, nə yaman fikrə getmisən? Heç yaxınlaşmaq istəmirdim.

- Doğrudur, fikrə getmişdim, amma nə qədər fikir içində yaşamaq olar? Gəl görək, qəza bizə tərəf nə

və bu vaxt ərzində Ağqoyunluların Şiraz xəzinəsinə toplanmış varidatını sərf edib yenidən qoşun toplaya biləcək.

Əgər Şah İsmayıl onun qoşun toplamağından xəbər bilib hücuma keçməli olsa, o vaxtacan Sultan Murad özünü cəmləyə biləcəkdi. - Ağqoyunlu varisi belə düşünürdü.

...Bir həftə ötdü, Şah İsmayıl Sultan Muradın vəd etdiyi bağışlanma əvəzinə gələcək töhfələri gözlədi. Daha ikinci həftə də keçmişdi ki, Sultan Muraddan bəxşişlər əvəzinə həyəcanlı xəbərlər gəlməyə başladı.

Sultan Muradın cidd-cəhdlə qoşun toplaması, hətta Şah İsmayılla qarşılaşacağı təqdirdə onu birdəfəlik hərb meydanından silmək qəsdi il Osmanlılarla əlaqə yaratmaq cəhdləri, üstəlik Şah İsmayıla sui-qəsd edəcək casuslar dəstəsi hazırlamağı haqqında gələn xəbərlər Şah İsmayılı bərk qəzəbləndirdi. İndi onun Sultan Muradı bağışlamaq fikri yox idi. Çünki hiss edirdi ki, bu şəxs sağ qaldıqca özünün xəyanətkar əməllərindən heç vaxt əl çəkməyəcək.

Şah İsmayıl hələ də onun iqamətgahında olan Məryam xanıma tənələrini çatdırmaq istəyirdi. Amma bunu necə edəcəyini də düşünürdü. O, istəmirdi ki, Məryam xanımın xatirinə dəysin, onu incik salsın. Amma istəyirdi ki, heç olmasa Məryam xanım Sultan Muradın növbəti xəyanətindən xəbər tutsun. Bilsin ki, Sultan Murad nəinki Şah İsmayılı, elə birinci Məryam xanımın özünü aldadıb.